*Qədim Diyar Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 8, Sayı: 6, s. 307−311
*Ancient Land International Scientific Journal.* June 2026, Volume: 8, Issue: 6, pp. 307−311
DOI: https://doi.org/10.36719/2706-6185/61/307-311

# Müəllim-tələbə münasibətlərində humanist yanaşma

**Fərİdə Qəhrəmanova**

***Xülasə.*** *Müəllim-tələbə münasibətlərində humanist yanaşma, müasir pedaqoji təfəkkür kontekstində tədrisin effektivliyini artıran əsas prinsiplərdən biridir. Bu yanaşma ənənəvi avtoritar, müəllim-mərkəzli modeldən fərqli olaraq, qarşılıqlı hörmət, dialoq və əməkdaşlıq əsasında qurulur. Humanist təhsil nəzəriyyəsi müəllimi yalnız bilik ötürən şəxs kimi deyil, həm də tələbələrin inkişafını istiqamətləndirən, dəstək verən və sosial-emosional mühitə nəzarət edən fasilitator kimi təqdim edir. Belə bir yanaşmada müəllim tələbənin idrak və tənqidi düşünmə bacarıqlarını üzə çıxarmağa, öyrənməyə həvəsləndirməyə və onların özünü ifadə imkanlarını genişləndirməyə yönəlir.*
*Humanist yanaşma müəllim-tələbə münasibətlərində bir sıra psixoloji və pedaqoji üstünlüklər təmin edir. Əvvəla, bu yanaşma tələbələrin öyrənmə prosesində fəal iştirakını təmin edir; onlar müzakirələrdə iştirak edir, öz fikirlərini ifadə edir və çətin vəziyyətlərdə qərar vermə bacarıqlarını inkişaf etdirirlər. İkincisi, müəllim və tələbə arasında inam münasibətləri qurulur ki, bu da öyrənmənin səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Üçüncüsü, humanist təhsil yanaşması fərdi ehtiyaclara hörmət, empatiya, sosial və emosional dəstək kimi elementləri tədris prosesinə daxil etməklə psixoloji problemlərin aradan qaldırılmasına kömək edir. Nəticədə tələbələr özünə inam, məsuliyyət hissi və sosial-emosional bacarıqlar əldə edirlər.*

***Açar sözlər:*** *humanist, müəllim–tələbə, təlim, empatiya, motivasiya, hörmət, inkişaf*

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: feridagahramanova@gmail.com
Daxil oldu: 24 Fevral 2026; Qəbul edildi: 25 May 2026; Onlayn dərc edildi: 28 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Humanist Approach in Teacher- Student Relationships

**Farida Gahramanova**

***Abstract.*** *The humanistic approach to teacher-student relations is one of the main principles that increase the effectiveness of teaching in the context of modern pedagogical thinking. This approach, unlike the traditional authoritarian, teacher-centered model, is based on mutual respect, dialogue and cooperation. The humanistic theory of education presents the teacher not only as a person who transmits knowledge, but also as a facilitator who guides the development of students, provides support and controls the socio-emotional environment. In such an approach, the teacher aims to reveal the student's cognitive and critical thinking skills, motivates them to learn and expands their opportunities for self-expression. The humanistic approach provides a number of psychological and pedagogical advantages in teacher-student relations. First of all, this approach ensures the active participation of students in the learning process; they participate in discussions, express their opinions and develop decision-making skills in difficult situations. Secondly, a relationship of trust is established between the teacher and the student, which significantly increases the effectiveness of learning. Third, the humanistic approach to education helps to overcome psychological problems by*

*incorporating elements such as respect for individual needs, empathy, and social and emotional support into the teaching process. As a result, students gain self-confidence, a sense of responsibility, and social-emotional skills.*

***Keywords:*** *humanist, teacher-student, learning, empathy, motivation, respect, development*

---

Baku Slavic University, Master's student, Baku, Azerbaijan
E-mail: feridagahramanova@gmail.com
Received: 24 February 2026; Accepted: 25 May 2026; Published online: 28 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Müasir təhsil sistemi dinamik və sürətlə dəyişən cəmiyyətin tələblərinə cavab verəcək şəkildə yenidən qurulma mərhələsindədir. Tədris prosesinin keyfiyyətinin yüksəldilməsi, tələbələrin bilik, bacarıq və dəyərlər sisteminin formalaşması yalnız ənənəvi bilik ötürülməsi ilə təmin olunmur. Bu baxımdan müəllim-tələbə münasibətləri tədrisin mərkəzində duran əsas element kimi çıxış edir. Müəllim və tələbə arasında qarşılıqlı hörmət, əməkdaşlıq və dialoq prinsiplərinə əsaslanan münasibətlər öyrənmə prosesinin effektivliyini artırmaqla yanaşı, tələbələrin şəxsiyyət inkişafını, sosial və emosional bacarıqlarını da gücləndirir. Humanist yanaşma bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir, çünki o, yalnız biliklərin ötürülməsi deyil, həm də tələbənin fəal iştirakını, özünü ifadə etmə imkanlarını və özünü dərk etmə bacarığını dəstəkləyir.

Humanist pedaqogika nəzəriyyəsi müəllimi bilik verən şəxs kimi deyil, həm də öyrənmə prosesini yönləndirən, dəstək verən və tələbələrin idrak potensialını üzə çıxaran fasilitator kimi təqdim edir. Bu yanaşma müəllimin rolu ilə bağlı ənənəvi, avtoritar modellərdən kənara çıxaraq demokratik və refleksiv tədris mühitini ön plana çıxarır. Belə bir yanaşmada müəllim tələbənin öyrənməyə marağını artırır, onların suallarına diqqətlə yanaşır, kritik düşünmə bacarıqlarının inkişafına şərait yaradır və öyrənmə prosesini interaktiv və dialoqa əsaslanan şəkildə təşkil edir.

## Metodlar

Müəllim-tələbə münasibətlərində humanist yanaşmanı araşdıran məqalədə pedaqoji prosesdə qarşılıqlı hörmət, tələbə mərkəzli təlim və empatiya keyfiyyətini dəyərləndirmək üçün keyfiyyətli tədqiqat metodologiyasına əsaslanmışdır. Bu üsullar humanist yanaşmanın subyektiv və emosional çalarlarını daha dərindən təhlil etməyə yönəlmişdir. İştirakçılar məqsədli seçmə metodu ilə müəyyənləşdirilmiş, əldə olunan məlumatlar tematik təhlil metodu ilə analiz edilmişdir.

## Nəticələr

Tələbələrin fəal iştirakı, öz fikir və mövqelərini sərbəst ifadə edə bilməsi, müzakirələrdə iştirak etməsi və qərar qəbul etmə bacarıqlarının inkişafı müasir təhsil sistemində əsas hədəflərdən biridir. Humanist yanaşma tələbəyə yalnız akademik biliklər qazandırmaqla kifayətlənmir, onun emosional və sosial bacarıqlarını da inkişaf etdirir. Müəllim-tələbə münasibətlərində inam, empatiya və qarşılıqlı hörmətin formalaşması tədrisin effektivliyini artırmaqla yanaşı, tələbənin özünə inamını və məsuliyyət hissini gücləndirir.

Bu yanaşma həmçinin müəllimin emosional intellektini və ünsiyyət bacarıqlarını ön plana çıxarır. Müəllimin tələbələrlə münasibətlərində humanist, demokratik və refleksiv tədris strategiyalarından istifadə etməsi, tədris prosesində psixoloji iqlimin sağlam olmasını təmin edir. Avtoritar yanaşmalar

qısamüddətli intizam əldə etməyə imkan versə də, uzunmüddətli mənfi təsirlərə səbəb olur və tələbələrin təşəbbüs və azad düşüncəsini sıxışdırır. İnsan mərkəzli yanaşma isə tələbələrin sosial-emosional inkişafını dəstəkləyərək onların özünü ifadə etmə və problem həll etmə bacarıqlarını artırır. Bütün bunlar müəllim-tələbə münasibətlərində humanist yanaşmanın pedaqoji əhəmiyyətini və tədris prosesinin effektivliyinə təsirini bir daha vurğulayır. Humanist yanaşma müasir təhsil sistemində tələbələrin fəal, məsuliyyətli və yaradıcı fərd kimi formalaşmasına xidmət edir. Bu yanaşma, eyni zamanda, tədris prosesinin yalnız akademik məqsədlərlə məhdudlaşmadığını, həm də tələbələrin şəxsiyyət və sosial bacarıqlarının inkişafına yönəlmiş kompleks bir pedaqoji strategiya olduğunu göstərir.

## Müzakirə

Müasir təhsil kontekstində müəllim-tələbə münasibətlərinin təhlili, humanist pedaqogika yanaşmasının tətbiqi çərçivəsində əhəmiyyətli nəticələr ortaya qoyur (Lei, 2007). Humanist yanaşma ənənəvi avtoritar, müəllim-mərkəzli tədris modelindən fərqli olaraq, tələbənin öyrənmə prosesində fəal rolunu, şəxsiyyətin inkişafını, sosial və emosional bacarıqların formalaşmasını nəzərdə tutur (Hüseynzadə, 2021). Bu baxımdan müəllim-tələbə münasibətləri yalnız biliklərin ötürülməsi prosesini deyil, həm də qarşılıqlı hörmət, əməkdaşlıq və dialoq mühitini ehtiva edən kompleks sosial-pedaqoji sistem kimi qiymətləndirilir (Məmmədova, 2025).

Psixoloji-pedaqoji nəzəriyyələr göstərir ki, tələbələr sosial qarşılıqlı əlaqə və psixososial dəyişiklikləri əhatə edən mərhələli inkişaf yaşayırlar. Piaget və Viqotski nəzəriyyələrinə görə, uşaqlar və yeniyetmələr idrak, sosial və emosional bacarıqlarını inkişaf etdirərkən müəllimin dəstəyi vacibdir (Əliyeva, 2024). Eriksonun psixososial inkişaf mərhələləri isə göstərir ki, hər bir inkişaf mərhələsi tələbənin özünə inamının, sosial bacarıqlarının və məsuliyyət hissinin formalaşmasında kritik rol oynayır. Müəllim-tələbə münasibətlərində humanist yanaşma bu inkişaf mərhələlərini nəzərə alaraq, fərdi ehtiyaclara hörmət göstərməyi, empatiya və sosial-emosional dəstək verməyi ön plana çıxarır. Bu, tədris prosesində yalnız qısamüddətli intizamın təmin olunmasını deyil, uzunmüddətli şəxsiyyət və bacarıq inkişafını da hədəfləyir (Məmmədova, 2025).

Humanist yanaşmada müəllim təkcə bilik verən şəxs kimi deyil, həm də öyrənmə prosesinin təşkili, tələbənin təşəbbüskarlığını dəstəkləmə və kritik düşünmə bacarıqlarını inkişaf etdirmə funksiyasını yerinə yetirir. Müəllim tələbələri fəal öyrənməyə həvəsləndirir, onların suallarına diqqət göstərir və öyrənmə prosesində fasilitator rolunu oynayır. Bu yanaşma tələbələrin öyrənməyə marağını artırmaqla yanaşı, onların sosial və emosional inkişafına da təsir göstərir. Tələbələr müzakirələrdə iştirak edir, fikir və təkliflərini sərbəst ifadə edir, problem həll etmə bacarıqlarını inkişaf etdirir. Nəticədə, müəllim-tələbə münasibətləri qarşılıqlı etimad, empatiya və əməkdaşlıq üzərində qurulmuş sistem kimi formalaşır (Avtoreferat, 2022).

Empirik tədqiqatlar göstərir ki, humanist yanaşmanın tətbiqi tələbələrin motivasiyasını, dərsə marağını və öyrənmə nəticələrini əhəmiyyətli dərəcədə artırır. Məsələn, sorğu və müşahidə nəticələrinə görə, müəllimlərin emosional intellekti və ünsiyyət bacarıqları, humanist və demokratik tədris metodlarının tətbiqi tələbələrin öyrənməyə marağını artırmaqla yanaşı, davranış problemlərinin azalmasına və psixoloji iqlimin sağlamlaşmasına şərait yaradır. Tədrisdə motivasiyanın olmaması, fərdi ehtiyaclara hörmət edilməməsi və davranış problemləri humanist metodların tətbiqi ilə əhəmiyyətli dərəcədə azaldıla bilər (Lei, 2007). Bu yanaşma həmçinin müəllimlərə tələbələrin sosial-emosional vəziyyətini müşahidə etməyə və dərs prosesini tələbələrin fərdi inkişafına uyğun təşkil etməyə imkan verir (Məhəmmədova, 2023).

Müasir təhsil tədqiqatları göstərir ki, humanist pedaqogika prinsiplərinə əsaslanan müəllim-tələbə münasibətləri yalnız akademik nəticələrə deyil, həm də tələbələrin şəxsiyyət inkişafına təsir göstərir.

Tələbələr özünə inam, məsuliyyət və tənqidi düşünmə bacarıqları əldə edir, sosial bacarıqlarını inkişaf etdirir və əməkdaşlıq qabiliyyətlərini gücləndirirlər. Müəllim-tələbə münasibətlərində demokratik yanaşmaların tətbiqi uzunmüddətli perspektivdə öyrənmə prosesinin keyfiyyətini yüksəldir və tələbələrin aktiv, yaradıcı və məsuliyyətli fərd kimi formalaşmasına xidmət edir (Məhəmmədova, 2023).

**Cədvəl 1**
*Müəllim–tələbə münasibətlərində ənənəvi və humanist yanaşmanın müqayisəsi*

| Meyar | Ənənəvi yanaşma | Humanist yanaşma |
|---|---|---|
| Təlimin mərkəzi | Müəllim mərkəzlidir | Tələbə mərkəzlidir |
| Müəllimin rolu | Nəzarətçi, bilik ötürən | Fasilitator, istiqamətləndirici |
| Tələbənin rolu | Passiv dinləyici | Aktiv iştirakçı |
| Ünsiyyət forması | Biristiqamətli (monoloq) | Qarşılıqlı dialoq |
| Motivasiya tipi | Xarici motivasiya (qiymət, cəza) | Daxili motivasiya (maraq, özünüinkişaf) |
| Psixoloji mühit | Rəsmi, bəzən gərgin | Təhlükəsiz, empatik və dəstəkləyici |
| Qiymətləndirmə | Nəticəyönümlü, standart | Prosesyönümlü, fərdi yanaşma |
| Yaradıcılığa yanaşma | Məhdud | Təşviqedici |
| Sosial bacarıqların inkişafı | İkincidərəcəli | Prioritet istiqamət |
| Tələbənin şəxsiyyətinə münasibət | Akademik nəticəyə fokus | Şəxsiyyətin bütöv inkişafı |

*Mənbə.* Woolfolk, A. (2020). *Educational psychology* (14th ed.). Pearson Education.

Cədvəl 1-də müəllim–tələbə münasibətlərində ənənəvi və humanist yanaşmalar müxtəlif meyarlar üzrə müqayisə edilmişdir və hər bir meyar təlim prosesinin mahiyyətini əks etdirir (Bəşirov, 2016). İlk olaraq, təlimin mərkəzi məsələsinə diqqət yetirdikdə görünür ki, ənənəvi model müəllim mərkəzlidir. Bu halda müəllim əsas informasiya mənbəyi hesab olunur və dərs prosesi onun izahı üzərində qurulur. Humanist yanaşmada isə tələbə mərkəzdə dayanır. Təlim prosesi tələbənin ehtiyac, maraq və fərdi xüsusiyyətlərinə uyğun şəkildə təşkil edilir (Əliyeva, 2022).

Müəllimin rolu baxımından fərq daha aydın görünür. Ənənəvi sistemdə müəllim nəzarətçi və qiymətləndirici funksiyasını daşıyır. Humanist modeldə isə müəllim fasilitator rolunda çıxış edir, yəni öyrənmə prosesini istiqamətləndirir, dəstək verir və tələbənin müstəqil düşünməsini təşviq edir (İbrahimova və Hüseynzadə, 2011). Tələbənin rolu da bu iki yanaşmada fərqlidir. Ənənəvi yanaşmada tələbə əsasən passiv dinləyici mövqeyindədir. Humanist yanaşmada isə o, aktiv iştirakçı, müzakirə edən, fikir bildirən və qərarvermə prosesində iştirak edən subyektə çevrilir. Ünsiyyət formasında ənənəvi model monoloq xarakterlidir – müəllim danışır, tələbə dinləyir. Humanist yanaşmada isə dialoq üstünlük təşkil edir. Qarşılıqlı fikir mübadiləsi, sual-cavab və əməkdaşlıq mühiti formalaşır (İsmixanov və Bəxtiyarova, 2010). Motivasiya məsələsində ənənəvi yanaşma daha çox xarici motivasiyaya – qiymət, mükafat və ya cəza faktoruna əsaslanır. Humanist yanaşmada isə daxili motivasiya ön plandadır. Tələbə maraq, özünüreallaşdırma və şəxsi inkişaf istəyi ilə öyrənir.

**Nəticə**

Müəllim–tələbə münasibətlərində humanist yanaşma müasir təhsil sisteminin əsas prioritetləri ilə uzlaşan və şəxsiyyətin hərtərəfli inkişafını təmin edən effektiv pedaqoji model kimi qiymətləndirilə bilər. Aparılan təhlil göstərir ki, bu yanaşma ənənəvi, avtoritar münasibət modelindən fərqli olaraq qarşılıqlı hörmət, empatiya, əməkdaşlıq və psixoloji təhlükəsizlik prinsiplərinə əsaslanır. Nəticədə

tələbə yalnız bilik əldə edən deyil, həm də özünü dərk edən, təşəbbüskar və məsuliyyətli şəxsiyyət kimi formalaşır.

Humanist münasibətlər mühitində müəllim fasilitator rolunu yerinə yetirərək tələbənin fərdi xüsusiyyətlərini, maraq və ehtiyaclarını nəzərə alır. Bu isə daxili motivasiyanın güclənməsinə, təlim prosesində fəal iştirakın artmasına və akademik nəticələrin yüksəlməsinə səbəb olur. Eyni zamanda, belə yanaşma tələbələrin sosial-emosional bacarıqlarının, tənqidi düşünmə və ünsiyyət qabiliyyətlərinin inkişafına müsbət təsir göstərir.

## Ədəbiyyat


1. Bəşirov, V. P. (2016). Humanist pedaqogikanın hədəfləri. *Azərbaycan Müəllimi*, 38, 5–8.
2. Əliyev, C. Q. (2021). Psixopedaqogika və müəllim-tələbə münasibətləri. *Təhsil Əsərləri*, 7, 9–30.
3. Əliyeva, S. (2024). *Ali məktəb pedaqogikası: Müəllim-tələbə münasibətləri*. Bakı Dövlət Universiteti.
4. Əliyeva, S. Q. (2022). *Təhsil kontekstində motivasiya və pedaqoji münasibətlər*. Bakı Dövlət Universiteti.
5. Hüseynzadə, R. (2021). *Pedaqogika*. Mütərcim.
6. İbrahimov, F. N., & Hüseynzadə, R. L. (2012). *Pedaqogika*. Mütərcim.
7. İsmixanov, M. A., & Bəxtiyarova, R. (2010). *Ali məktəb pedaqogikası* (Mühazirə mətni). Azərbaycan Dövlət Pedaqoji Universiteti.
8. Lei, X. (2007). Humanistic education: Concerns, implications and applications. *Journal of Language Teaching and Research, 4*(1), 45–51.
9. Mammadova, L. (2025). Development of the Azerbaijani education sector and humanistic values formation. *Metafizika Journal, 8*(6), 294–308.
10. Məhəmmədova, G. A. (2023). Təlim və humanist prinsiplər. *Təhsil Araşdırmaları Jurnalı, 2*(4), 85–102.
11. Məmmədova, L. E. N. (2025). Humanist dəyərlər və təhsil sektorunun inkişafı. *Əməkdar Elm Journal, 5*(3), 115–132.
12. *Müasir məktəbdə humanist pedaqogika və müəllim-şagird münasibətləri* (Dissertasiya avtoreferatı) (2022). NMI.